

Kənan Hacı

# Hacı İsgəndər

Roman

(əvvəli ötən sayımızda)

**Müəllifdən**

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***O, iri addımlarla qaşqabaqlı halda mahir ustaların təmtəraqlı naxışlar çəkdiyi ağ daşdan tikilmiş zalın divarı boyu gəzişir, fəhlələrin yanından ötüb keçir, baxışlarını hamıdan gizlətməyə çalışırdı. Ustalar və fəhlələr isə dünyanın gərdişindən xəbərsizmiş kimi heç kimə fikir vermədən işləyirdilər.***

***Hacı İsgəndər savadlı adam idi, ölkədə gedən proseslərdən xəbərdar idi. Bilirdi ki, Azərbaycan müstəqilliyini elan etsə də bolşevik Rusiyası işğal planları hazırlayır. 1918-ci il iyunun 17-də hakimiyyətə gələn F.Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çox ağır bir beynəlxalq və daxili şəraitdə soyqırımı taleyi yaşayan Azərbaycan xalqını tarixin ən ağır qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu.Təcili olaraq müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökumət yaranmış vəziyyətdən çıxmaq üçün ilk günlərdəncə qəti tədbirlərə əl atdı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu ayrıca Azərbaycan Korpusuna çevrildi və həmin korpusun komandirinə general rütbəsi verildi.***

Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da faktiki olaraq Azərbaycan silahlı qüvvələrinin yaradılması demək idi. İyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu. Dövlət quruculuğu daha da genişləndirildi.

Türkiyədən dərsliklər gətirmək və müəllimlər dəvət etmək barədə qərar qəbul olundu. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı. Yelizavetpol və Karyaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Füzuli adlandırıldı. Vətən özgə paltarını əynindən atıb öz milli libasını geyinirdi. Milli orduya səfərbərlik keçirildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci Dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Bundan əlavə, hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında fərman verildi. Lakin F.Xoyski hökumətinin başlıca vəzifəsi ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi.




Düşmənlər marığa yatmışdı, hər an fürsət gözləyirdilər ki, müstəqil Cümhuriyyəti diz çökdürsünlər. Hacı İsgəndər gündəlik qəzetləri oxuyur, siyasi prosesləri izləyirdi. Mart qırğınlarının yaraları hələ sağalmamışdı, ölkədə milli nifaq salmaq istəyənlər hələ də fitnəkarlıqlarından qalmırdılar. Əlbəttə, bu işlərin başında Şaumyan dayanırdı. O da Rusiyadan idarə olunurdu. Hacını narahat edən, əli-qolunu işdən soyudan səbəblər bunlar idi. Düşünürdü ki, xarici qüvvələrin həmləsindən qorunmaq üçün mütləq ordu yaradılmalıdır. Əks halda Azərbaycan boşeviklərin və erməni daşnaklarının hücumu qarşısında müdafiəsiz qalacaq. O görürdü ki, ölkədə hərbi böhran günbəgün dərinləşir. Belə bir şəraitdə Hərbi Nazirliyin formalaşdırılması xeyli müddət çəkəcəkdi. Ona görə də təcili addım kimi Osmanlı hərbi qüvvələrinin Azərbaycana dəvət edilməsi və onun bazasında Qafqaz İslam Ordusunun yaradılması məqsədəuyğun bilinmişdi.

***Müstəqilliyin elan edilməsindən sonra Azərbaycanda və onun ətrafında formalaşan mürəkkəb hərbi-siyasi şəraiti, Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş bolşevik-daşnak cütlüyünün yaratdığı real təhlükənin aradan qaldırılması zərurətini nəzərə alaraq Azərbaycan hökuməti 1918-ci il iyun ayının 4-də Osmanlı dövləti ilə imzaladığı dostluq müqaviləsinin 4-cü maddəsinə uyğun olaraq bu ölkədən hərbi kömək istədi. Osmanlı dövlətindən bu müraciətə müsbət cavab verildi və nəticədə Azərbaycana gələn Osmanlı hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Hacı İsgəndər bu xəbəri qəzetdən oxuyanda sevincdən uçmağa qanadı yox idi. Məqam yetişmişdi və o, bu ordunun ön sıralarında olacaqdı.***

Qafqaz İslam Ordusunun fəaliyyətinin əsasını 1918-ci ilin yayında erməni-bolşevik qüvvələrinə qarşı mübarizə aparmaq təşkil edirdi. 1918-ci ilin iyun ayının ortalarında Qafqaz İslam Ordusunun Qaraməryəm ətrafından başlayan uğurlu hərbi yürüşü 1918- ci il sentyabr ayının 15-də Bakı şəhərinin azad edilməsi ilə başa çatdı.

Məscidin tikintisi gedən günlərdə Hacı səksəkə içində idi. Ermənilər dinc dayanmırdılar, gündə bir təxribat törədirdilər. Gecələrdən birində ovqatını təlx edən bir hadisə baş verdi.

Zülmət gecə öz qanadını kəndin üstünə gərmişdi. Azançının son zəngulələsi əriyib qaranlığa qarışırdı. Adamlar yavaş-yavaş yatmağa hazırlaşırdı, kəndə sükut çökürdü. Hacı İsgəndər isə rahatlıq tapa bilmirdi, ona dalbadal qorxulu xəbərlər çatdırırdılar. Bölgələrdə ermənilər məscidləri yandırır, günahsız insanların başına minbir oyunlar açırdılar. Uzun mis zəncirdən asılmış qurşaqlı böyük fənər pilləkanın üstündə ağır-ağır yellənirdi. Fənərin piltəsi közərir, çırtıldayır, tüstülənərək ətrafa tutqun işıq salırdı. O, böyük olsa da işığı solğun idi. Fənər tərpəndikcə enli kölgə divarda səssiz-səmirsiz sürünürdü, pilləkana isə işıq düşmürdü. Hacı İsgəndər ehtiyatla, məhəccəri demək olar ki, əliylə yoxlaya-yoxlaya yuxarı qalxır, nəfəsini dərmək üçün sürtülüb yeyilmiş hündür pillələrdə hərdən ayaq saxlayırdı. Nəhayət, o, şüşəbəndin zal boyu uzanan taxta döşəməsinə ayaq basdı. Eyvanın uzaq qurtaracağında da pilləkanın üstündəki kimi böyük bir fənər asılmışdı, o da ətrafa titrək işıq salırdı. Hacı İsgəndər yeridikcə döşəmə onun ayaqları altında cürbəcür səslər çıxarırdı; gah yanıqlı ah-nalə çəkir, gah incə və zərif səslə nəğmə oxuyur, gah qəzəblə, gah hürkə-hürkə cırıldayır, gah da inildəyirdi. Gündüzlər döşəmədən belə səslər çıxmırdı. Ora-bura tələsən adamların möhkəm addımları altında səssiz-səmirsiz dayanırdı. Bunun özü də bir sirri-xuda idi. Elə yatmağa hazırlaşırdı ki, darvazanın döyüldüyünü eşitdi. Dərhal anladı ki, gələn kimdisə xeyir xəbər gətirməyib. Kürkünü çiyninə atıb döşəmənin cırıltısına fikir vermədən həyətə düşdü. Qapının rəzəsini qaldıranda Qoçu İslamla üz-üzə gəldi. Qoçunun üzündə vahiməli ifadə vardı, sanki üzünün dərisini aşağı dartmışdılar, bığları səyriyirdi. Hacı tez soruşdu:

***- İslam, gecənin bu vaxtı yenə nə lo xəbər gətirmisən?***

***Qoçu İslam ağzını Hacının qulağına aparıb pıçıltıyla bu sözləri dedi:***

***- Hacı, yatmaq vaxtı deyil, məscidin tikintisində işləyən fəhlələrdən ikisini gecə evə gedəndə ermənilər Təmənnis tərəfdə doğrayıblar.***

***Xəbər Hacı İsgəndəri solaxay zərbə kimi tutdu, bilmədi nə desin.Qəzəbdən bütün bədəni keyidi, sağ yumruğunu darvazaya necə çırpdısa Qoçu İslamı diksindirdi.***

- Onların burnu ovulmalıdır! Ovulmalıdır! Gücümüzü onlara göstərməliyik, İslam! Yoxsa onlar heç birimizi sağ qoymayacaqlar. Onların Allahı yoxdur, qardaş. Ustalara demək lazımdır ki, ehtiyatlı olsunlar, təxribatlara uymasınlar. Bunlar bizim işimizə mane olmaq istəyirlər.

Qoçu İslam papirosunu elə hərisliklə sümürdü ki, ovurdları bir-birinə dəydi, tüstü parovoz kimi ağzından çıxıb gecənin qaranlığına qarışdı. Sanki içindəki bütün nifrəti bir tüstüyə sığışdırmışdı. İkisinin də tüstüsü başından çıxırdı...

## IV fəsil

**Millət yaşamaz yurdunu zəbt eyləsə düşmən,**
**Gəldikdə xəzan fəsli sönər rövnəqi-gülşən,**
**İstərsək əgər yurdumuz olsun da işıq, şən,**
**Göstərməliyiz düşmənə bir cürəti-rövşən,**
**Qurbani-vətən olmalı bir can ilə bir tən,**
**Ən ülvi səadət - Vətən olsun mənə mədfən:**
**Amalımıza doğru şitaban olalım gəl,**
**Millətlə vətən rahinə qurban olalım gəl!**

*Məhəmməd Hadi*

***Kəndin başı üstündə bir qara bulud dolaşırdı, hara enəcəyini bilmirmiş kimi qıvrılırdı. Qıvrıla-qıvrıla bir neçə hissəyə bölündü və içindəki seli kəndin üstünə püskürdü. Qadınlar axşam yeməklərini bişirir, paltarlarını yuyur, heyvanlara su verir, bir azdan işdən qayıdacaq ərlərini gözləyirdilər. Dəniz səmtindən qırmızıya çalan bir başqa bulud da yüksəldi,küləyə qarışıb qıvrıla-qıvrıla günəşin qarşısını kəsdi. İki qəzəbli bulud iki düşmən əsgər kimi üz-üzə dayandı. Günəş söndü, küləklər susdu. Qarşı-qarşıya dayanan iki əsgər buludun arasından qara-qara, xırda bulud parçaları minlərcə qarğa kimi kəndin üstünə doğru uçuşdular. Sonra hücum başladı. Buludlar toqquşdu, müdhiş ağızlarını açıb bir-birinə qızılı dillərini göstərdi və göy gurladı...***

(davamı gələn sayımızda)